No: 03 2025
https://doi.org/10.64400/ea25-3-23
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

## HÜQUQ VƏ SİYASİ ELMLƏR

# BAKI TƏŞƏBBÜS QRUPU VƏ DEOKOLONİAL SİYASƏT: FRANSA VƏ QƏRB KOLONİALİZMİNƏ QARŞI YENİ GEOSİYASİ HƏRƏKAT

**Mahammad CƏBRAYILOV**

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Fəlsəfə və Sosiologiya İnstitutu "Rəqəmsal İnkişaf və Süni İntellektin Fəlsəfi Problemləri" şöbəsinin müdiri, fəl.ü. f.d, dosent
**Yazışılan müəllif:* mehmetsoltanedu@gmail.com

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi:* *10.09.2025*
*Nəşr edilmə tarixi:* *28.10.2025*

**AÇAR SÖZLƏRİ:**
Bakı Təşəbbüs Qrupu,
dekolonial siyasət,
neokolonializm,
Fransa,
geosiyasi təşəbbüs,
Azərbaycan.

**XÜLASƏ**

XXI əsrdə beynəlxalq münasibətlər sistemində güc münasibətlərinin transformasiyası və postkolonial dövlətlərin beynəlxalq sistemdə bərabər söz sahibi olmaq istəyi, dekolonial siyasətin aktuallaşmasına səbəb olmuşdur. Bu kontekstdə Azərbaycan Respublikasının təşəbbüsü ilə yaradılan Bakı Təşəbbüs Qrupu (BTQ), neokolonializmə qarşı beynəlxalq müstəvidə formalaşan yeni hərəkat kimi dəyərləndirilə bilər. Məqalənin məqsədi BTQ-nin yaranma zərurətini, fəaliyyət istiqamətlərini və Azərbaycanın Fransa və digər Qərb güclərinin kolonial siyasətlərinə qarşı irəli sürdüyü geosiyasi mövqeni təhlil etməkdir.
Tədqiqatda normativ-siyasi analiz və postkolonial yanaşma əsas metodoloji çərçivə kimi istifadə edilmiş, BTQ-nin yalnız siyasi deyil, həm də mədəni və diplomatik platforma funksiyası kontekstində araşdırması aparılmışdır. Analiz zamanı BTQ-nin müxtəlif beynəlxalq forumlarda kolonial irsə qarşı çıxış etdiyi, eyni zamanda postkolonial ölkələr arasında əməkdaşlıq mexanizmləri qurduğu müəyyənləşdirilmişdir.
Araşdırmanın nəticələrinə əsasən, BTQ yalnız regional təşəbbüs deyil, həm də beynəlxalq sistemdə ədalət, suverenlik və bərabərlik kimi prinsipləri müdafiə edən normativ platforma funksiyası daşıyır.
Nəticə olaraq, məqalə göstərir ki, Azərbaycan dekolonial siyasəti vasitəsilə qlobal güc strukturunda yeni aktor kimi çıxış etməkdədir və BTQ bu prosesin əsas vasitələrindən birinə çevrilmişdir.

## GİRİŞ

XXI əsrin qlobal siyasətində postkolonial irs təkcə keçmişin tarixi yükü kimi deyil, həm də bu günün ideoloji, diplomatik və sosial münasibətlər sistemində dərin izlər buraxan struktur məsələ kimi dəyərləndirilir. Müstəmləkəçilik dövrünün formal olaraq sona çatmasına baxmayaraq, bir sıra beynəlxalq münasibətlərin məzmun və formasında həmin dövrün simvolları, praktikaları və təsir dairəsi hələ də müşahidə edilməkdədir. Bu səbəbdən neokolonializm yalnız siyasi və iqtisadi güc münasibətlərinin deyil, həm də epistemik hegemonluğun və simvolik zorakılığın yeni təzahürlərini özündə birləşdirən çoxşaxəli bir mexanizm kimi qiymətləndirilir.

Son illərdə bu mexanizmlərə qarşı Qlobal Cənub ölkələrinin koordinasiyalı mövqe sərgiləməsi və beynəlxalq arenada ədalət əsaslı dünya düzəni çağırışları güclənməkdədir. Belə çağırışlardan biri də Azərbaycan Respublikasının təşəbbüsü ilə yaradılmış Bakı Təşəbbüs Qrupudur. Bu təşəbbüs yalnız keçmiş müstəmləkə siyasətlərinin tənqidi ilə məhdudlaşmır, həm də

hazırkı beynəlxalq sistemdəki normativ asimmetriyanı sorğulayan və ona qarşı alternativ platformalar yaradan yeni nəsil diplomatik mexanizm kimi formalaşmaqdadır.

Məqalənin məqsədi, Bakı Təşəbbüs Qrupunun yaranma kontekstini və onun normativ-strateji məqsədlərini nəzəri və siyasi aspektlərdən təhlil etməkdir. Burada Azərbaycanın yalnız region daxilində deyil, qlobal səviyyədə də epistemik və diplomatik təşəbbüskar kimi çıxış etməsi məsələsi diqqət mərkəzinə çəkilir.

Bununla yanaşı, məqalədə postkolonial və dekolonial nəzəri yanaşmalar müqayisəli şəkildə təhlil olunur, Azərbaycanın bu çərçivədə oynadığı rol elmi kontekstdə şərh edilir. Nəticədə, Bakı Təşəbbüs Qrupunun sadəcə bir diplomatik təşəbbüs deyil, həm də qlobal bilik və güc münasibətlərinin transformasiyasında aktiv təsir gücünə malik bir platforma olduğu ortaya qoyulur.

### *Neokolonial kontekstdə Bakı Təşəbbüs Qrupunun formalaşması və hədəfləri*

XXI əsrdə beynəlxalq münasibətlər sistemində güc balansının dəyişməsi və postkolonial dövlətlərin suverenliyə əsaslanan yeni geosiyasi təşəbbüslərlə çıxış etməsi, neokolonial təcrübələrə qarşı daha koordinasiyalı müqavimət formalarının meydana çıxmasına şərait yaratmışdır. Bu kontekstdə 2023-cü ilin iyul ayında Bakıda keçirilmiş “Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru” adlı beynəlxalq tədbir çərçivəsində “Bakı Təşəbbüs Qrupu”nun (Baku Initiative Group, BIG) yaradılması, Azərbaycanın bu prosesdə aparıcı aktor kimi çıxış etməyə başladığını göstərir (Baku Initiative Group against French colonialism established, 2023). Tədbirin Qoşulmama Hərəkatının Koordinasiya Bürosu tərəfindən təşkili bu təşəbbüsün yalnız regional deyil, qlobal əhəmiyyətə malik olduğunu sübut edir.

Tarixi baxımdan Fransanın müstəmləkəçilik siyasəti XVI əsrdən etibarən genişlənməyə başlamış, XIX-XX əsrlərdə isə qlobal miqyasda – Afrikadan Hind-Çinə, Karib hövzəsindən Şimali Amerikaya qədər – yayılmışdır. Fransa imperiyası “sivilizasiya missiyası” adı altında, yerli əhalini assimilyasiya etmək, fransız dilini və katolikliyi yaymaq kimi mədəniyyət yönümlü siyasət həyata keçirmişdir. Bu yanaşma nəticə etibarilə bir çox keçmiş müstəmləkə ölkələrində siyasi sabitliyin pozulması, iqtisadi asılılığın dərinləşməsi və milli identikliyin zəifləməsi ilə müşayiət olunmuşdur (Cooper, 2005; Thomas, 2007).

Bakı Təşəbbüs Qrupu (BTQ) tərəfindən irəli sürülən dekolonizasiya siyasəti, xüsusən də Qlobal Cənubun tarixi kontekstində, postkolonial ədalətin və tarixi zülmün tanınması prosesində mühüm bir mərhələ kimi dəyərləndirilə bilər. Verilən sitatda Fransanın müstəmləkəçilik siyasətinin əsas ideoloji dayaqlarından biri olan “sivilizasiya missiyası” anlayışı, Bakı Təşəbbüs Qrupunun müasir postkolonial təhlilində ciddi şəkildə tənqid obyektinə çevrilir.

Bu baxımdan Azərbaycanın Bakı Təşəbbüs Qrupu vasitəsilə bir neçə strateji məqsədə yönəlmiş beynəlxalq təşəbbüslərini ümumiləşdirməklə üç istiqamətini müəyyənləşdirmək olar:

Birincisi, bu təşəbbüs vasitəsilə Azərbaycan beynəlxalq ictimaiyyətin diqqətini Qərbin, xüsusilə də Fransanın müasir neokolonial siyasətlərinə yönəltməyə çalışır. Əsas məqsəd keçmiş müstəmləkələrin milli suverenliklərini tam bərpa etmələrinə dəstək verməkdir. Bu çərçivədə Bakı Təşəbbüs Qrupu beynəlxalq hüquq və diplomatik platformalarda bu məsələlərin gündəmə gətirilməsi üçün strukturlaşdırılmış çərçivə yaradır.

İkincisi, Bakı Təşəbbüs Qrupu Azərbaycan üçün Afrika, Karib və Sakit Okean ölkələri ilə daha sıx əməkdaşlıq imkanları yaratmaqla Qlobal Cənubda təsir dairəsini genişləndirmək imkanı verir. Bu həm də yeni geosiyasi koalisiyaların formalaşdırılması baxımından əhəmiyyətlidir.

Üçüncüsü, bu təşəbbüs Azərbaycanın beynəlxalq münasibətlərdə yumşaq güc strategiyasını gücləndirməyə xidmət edir. Azərbaycan yalnız enerji və nəqliyyat layihələri ilə deyil, həm də normativ dəyərlər və ədalət əsaslı siyasətlə tanınmaq istəyir.

Fransanın Yeni Kaledoniyada 1987-ci ildə keçirdiyi referendum prosesi postkolonial ədalətsizliyin nümunələrindən biridir. “Kanak və Sosialist Milli Azadlıq Cəbhəsi” (FLNKS) həmin referendumu boykot etməyə çağırmış, Sakit Okean Forumunun rəsmi bəyanatında isə Fransa siyasətinə qarşı açıq tənqid ifadə olunmuşdur (Corbin, 2024, s. 96). Bu, bir daha sübut edir ki,

Fransa neokolonial təsirini saxlamaq üçün yerli əhalinin iradəsini nəzərə almadan öz maraqları əsasında siyasi qərarlar verir.

Bakı Təşəbbüs Qrupunun yaradılması bu tarixi fon və davam edən neokolonial təcrübələrin kontekstində baş verir. Beləliklə, Azərbaycan bu təşəbbüs vasitəsilə beynəlxalq sistemdə yeni dekolonial nizamın formalaşmasında həm ideoloji, həm də institusional töhfə verməyə çalışan aktor kimi çıxış edir.

Bu baxımdan Bakı Təşəbbüs Qrupu yalnız siyasi səciyyəli bir platforma deyil, həm də tarixlə gələcək arasında qurulmuş fəlsəfi və ideoloji körpüdür. O, Sakit Okean adalarından Qlobal Cənuba qədər uzun müddət susdurulmuş, marginallaşdırılmış cəmiyyətlərin suverenlik, ədalət və iştirak hüquqları uğrunda mübarizəsinin çağdaş davamı kimi çıxış edir. Bu təşəbbüs yalnız keçmişin mirasını deyil, həm də mövcud postliberal və neokolonial düzənlərə qarşı alternativ geosiyasi və epistemoloji yanaşmaları özündə cəmləyir.

Azərbaycanın Bakı Təşəbbüs Qrupudakı rolu, təkcə geosiyasi aktivliklə məhdudlaşmır. Bu fəaliyyət həm də epistemoloji suverenlik iddiasını əhatə edir. V. Miqnolonun (2018) vurğuladığı kimi, epistemoloji suverenlik – bir xalqın hegemon bilik sistemlərinin xaricində, öz anlam çərçivələrini və bilik prioritetlərini müəyyənləşdirmək və tətbiq etmək haqqıdır. Bakı Təşəbbüs Qrupu vasitəsilə Azərbaycan yalnız siyasi reaksiyalar vermir, həm də beynəlxalq bilik istehsalına müdaxilə etməyə çalışır, alternativ anlam və gələcək təsəvvürləri irəli sürür.

Bakı Təşəbbüs Qrupunun bu xüsusiyyətləri onun "proleptik siyasi şüur" ifadəsinə uyğun gəldiyini göstərir (Wilder, 2015). Yəni, bu təşəbbüs yalnız mövcud struktur bərabərsizliklərə qarşı çıxmır, eyni zamanda beynəlxalq sistemdə mümkün alternativ gələcəkləri düşünməyə və qurmağa çağırır. Bu, Azərbaycan kimi postsovet və postkolonial keçmişə malik bir ölkənin, Qlobal Cənubun gələcək normativ və konseptual nizamında fəal iştirak niyyətini göstərir.

A. Membenin (2017) "struktur zorakılığı" anlayışı Bakı Təşəbbüs Qrupunun ideoloji xəttinə aydınlıq gətirir. O, qeyd edir ki, "postkolonial idarəetmə formaları təkcə keçmişin mirası deyil, həm də bu gün də dil, təhsil, iqtisadiyyat və mədəniyyət vasitəsilə davam edən asimmetrik münasibətlər sistemidir". Fransa bu baxımdan neokolonial güc kimi, keçmiş müstəmləkələrində təsir dairəsini saxlayır və beləliklə, "postkolonial struktur zorakılığı" həyata keçirir" (A. Mbembe, 2017). Bakı Təşəbbüs Qrupu isə bu münasibətləri ifşa etmək, onları ictimailəşdirmək və bu struktur zorakılığa qarşı kollektiv alternativlər yaratmaq məqsədi daşıyır.

Bu təşəbbüs, Azərbaycanın mədəni və normativ gücünü artırmaqla yanaşı, postkolonial və postsovet diskursların sintezindən çıxış edərək, beynəlxalq münasibətlərdə yeni episteme (bilik və anlam strukturunu) formalaşdırmaq cəhdi kimi də oxuna bilər. Digər tərəfdən, Bakı Təşəbbüs Qrupunun təsis olunması, dekolonial bilik istehsalının dövlət səviyyəsində təşviq edildiyi nadir hallardan biridir.

Bu baxımdan, Bakı Təşəbbüs Qrupu mövcud beynəlxalq sistemdə ədalət və bərabərliyi təmin edə biləcək yeni modellərin nəzəri və institusional əsaslarını formalaşdırmağa çalışır. Bu təşəbbüs, Azərbaycana yalnız regional liderlik deyil, həm də beynəlxalq bilik istehsalı sahəsində mövqe iddiası qazandırır. Digər tərəfdn Bakı Təşəbbüs Qrupunun fəaliyyəti, həm də intellektual və ideoloji müstəvidə reallaşan transformativ prosesin bir hissəsi kimi başa düşülməlidir. XX əsrin ortalarından etibarən postkolonial nəzəriyyənin banilərindən biri kimi tanınan Frants Fanon bu diskursun formalaşmasında aparıcı rol oynamışdır. Onun "Yer üzünün lənətlənmişləri" (1961) əsəri Stüart Hall tərəfindən "dekolonizasiya ideologiyasının İncili" adlandırılmış və təkcə siyasi azadlıq deyil, həm də mədəni və psixoloji müstəqilliyin vacibliyini vurğulamışdır (Hall, 1996).

Fanonun "Qara dəri, ağ maskalar" (1952) əsəri isə kolonial kontekstdə psixoloji zorakılığın və identiklik parçalanmasının dərin təhlilini təqdim etmişdir. O, irqçiliyin və mədəni assimilyasiyanın insanın özünüdərkini necə təhrif etdiyini psixoanalitik və fenomenoloji yanaşmalarla açmışdır. Bakı Təşəbbüs Qrupu, Fanonun "azadlıq layihəsi" anlayışının çağdaş davamı kimi dəyərləndirilə bilər. Bu təşəbbüs yalnız geosiyasi bərabərsizliyi deyil, həm də epistemik və normativ asimmetriyanı sorğulayan ideoloji mövqeyi ilə fərqlənir (Fanon, 1961).

Azərbaycanın irəli sürdüyü bu təşəbbüs təkcə siyasi suverenlik tələbini deyil, həm də Fanonun təhlil etdiyi kimi, bilik, mədəniyyət və dil sahələrində müstəqillik iddiasını da əhatə edir. Bu kontekstdə Maya Sabaratnamın (2011) fikirləri əhəmiyyətlidir. O, dekolonial yanaşmaların yalnız "kim nə deyir?" sualını deyil, "bilik necə və kim tərəfindən müəyyən edilir?" sualını sorğuladığını bildirir. Azərbaycanın Bakı Təşəbbüs Qrupu vasitəsilə reallaşdırdığı fəaliyyətlər, bu baxımdan, Qlobal Cənubun artıq passiv obyekt deyil, aktiv epistemik və normativ subyekt kimi çıxış etməyə başladığını göstərir.

Sabaratnamın vurğuladığı kimi, dekolonial perspektiv yalnız alternativ fikirlərin təqdimatı deyil, həm də bilik istehsalının strukturuna müdaxilə cəhdidir. Azərbaycanın təşəbbüsləri bu mənada "epistemik plüralizmi" müdafiə edir və Qərb mərkəzli beynəlxalq bilik nizamını sorğulamaqla postkolonial ədalətin yeni çərçivəsini qurmağa çalışır (Sabaratnam, 2011). Bakı Təşəbbüs Qrupunun reallaşdırdığı diskurs, normativ və institusional transformasiyalara yönəlmişdir – bu isə Fanonun təklif etdiyi radikal reabilitasiya ideyasının geosiyasi və diplomatik təcəssümüdür.

Qlobal sistemin çoxqütblü xarakter alması, xüsusilə XXI əsrin ikinci onilliyindən sonra Qlobal Cənub ölkələrinin regional təşəbbüslərlə beynəlxalq münasibətlərə təsir imkanlarını artırmışdır. Azərbaycanın təşəbbüsləri, bu prosesin postsovet və postkolonial kəsişməsində meydana çıxan hibrid bir model təqdim edir. Bu model nə "ideoloji mərkəz" yaratmaq, nə də özünü hegemon struktura çevirmək məqsədi güdür; əksinə, mövcud beynəlxalq düzənə epistemoloji və normativ alternativlər təklif edir.

Nəticə etibarilə, Bakı Təşəbbüs Qrupu dekolonial diskursun yalnız konseptual səviyyədə deyil, institusional praktikada da mövcud olduğunu sübut edən nümunədir. Bu təşəbbüs, Fanonun və digər postkolonial nəzəriyyəçilərin "yarımçıq qalmış azadlıq layihələri" anlayışını bu günün şərtlərində aktuallaşdırır və yeni bir qlobal ədalət rejiminin mümkünlüyünü müzakirəyə açır.

***Azərbaycanın deokolonial diplomatiyası və yeni geosiyasi nizamda rolu***

Azərbaycanın son illərdə beynəlxalq siyasətdə artan fəallığı və normativ çıxışları onu təkcə regional güc deyil, həm də dekolonial və ədalət yönümlü dünya düzəninin formalaşmasına töhfə verən aktor kimi möhkəmləndirir. Bu xüsusilə Azərbaycan Respublikasının Qoşulmama Hərəkatına (QH) sədrliyi dövründə daha aydın şəkildə müşahidə olunur. Məsələn, 2023-cü ildə Bakıda keçirilmiş Qoşulmama Hərakatının tədbirində Prezident İlham Əliyevin Fransa Prezidenti Emmanuel Makrona ünvanladığı çağırışda müstəmləkəçiliyin nəticələrinə görə üzr istəməyə təşəbbüs etməsi, Azərbaycanın bu istiqamətdə diplomatik diskurs formalaşdırmaq potensialını göstərir (Teslova, 2023).

Prezident İlham Əliyevin bu çıxışı, Azərbaycanın artıq beynəlxalq hüququn passiv icraçısı omadığını, eyni zamanda onun normativ məzmununa fəal şəkildə təsir göstərməyə çalışan subyektə çevrilmək niyyətində olduğunu göstərir. Bu mövqe, Fransanın keçmiş müstəmləkəçilik siyasətinə yönəlmiş tənqidin təkcə simvolik səviyyədə – yəni tarixi günahların etirafı ilə məhdudlaşmamasını, əksinə, həmin siyasətin bu günə qədər davam edən sosial, siyasi və institusional nəticələrinin tanınmasını və onların aradan qaldırılmasını tələb edir. Bu kontekstdə dekolonial diplomatiya retrospektiv ədalət axtarışından daha çox, qlobal güc münasibətlərinin struktur səviyyəsində yenidən qurulmasını hədəfləyən normativ-siyasi yanaşma kimi çıxış edir. Beləliklə, Azərbaycan öz mövqeyini postkolonial ədalət gündəminin fəal tərəfdarına çevirərək, beynəlxalq münasibətlər sistemində normayaradıcı aktor kimi çıxış etməyə iddialı olduğunu nümayiş etdirir.

Fransanın kolonial irsinin hələ də onun keçmiş müstəmləkələrində – Yeni Kaledoniya, Mayot, Karib adaları və Afrika ərazilərində – aktiv təsirlər doğurduğu gerçəkliyi, beynəlxalq konfranslar vasitəsilə Azərbaycanın ön plana çıxardığı mövzuların əks-sədasıdır. Bu baxımdan Azərbaycan, neokolonializmi yalnız keçmişlə bağlı hadisə kimi deyil, hazırkı beynəlxalq nizamın canlı problemi kimi kontekstləşdirir. Əliyevin ifadələri açıq şəkildə göstərir ki, bu məsələ yalnız keçmişə aid simvolik günahın tanınması ilə kifayətlənməməli, əksinə, bu gün baş verən sosial ayrı-seçkilik, struktur zorakılıq və suverenlik pozuntuları ilə birbaşa əlaqələndirilməlidir (Əliyev, 2023).

Azərbaycanın bu prosesdə diplomatik təşəbbüskar kimi çıxış etməsi onu yalnız enerji və nəqliyyat layihələri ilə yox, həm də beynəlxalq mənəvi-siyasi liderlik iddiası ilə tanıdır. Xüsusilə

Qoşulmama Hərəkatı çərçivəsində Prezident Əliyevin çıxışlarında vurğulanan "ədalət və hüquq əsaslı beynəlxalq nizam" tələbi, Azərbaycanın mövcud beynəlxalq düzəndə dəyişikliklərin zəruriliyinə dair ideoloji bir xətt formalaşdırmağa çalışdığını göstərir.

Bu yanaşma dekolonial diplomatiyanı sadəcə keçmişin hesabı kimi deyil, gələcəyin dizaynı kimi təqdim edir. Azərbaycanın çağırışı həm simvolik (üzr istəmə, tanınma), həm də struktur (suverenlik, bərabərlik, hüquqi tanınma) tələbləri özündə birləşdirir. Bu isə ölkənin diplomatik çıxışlarını normativləşdirir və onu Qlobal Cənubun maraqlarını beynəlxalq hüquq çərçivəsində müdafiə edən fəal subyektə çevirir.

Beləliklə, Azərbaycan tərəfindən irəli sürülən dekolonial diplomatiya konsepti, Fransız müstəmləkə mirası ilə məhdudlaşmayan, daha geniş şəkildə postkolonial aktorların hüquqi və siyasi bərabərliyini hədəfləyən yeni bir beynəlxalq münasibətlər arxitekturasının təşviqinə yönəlmişdir.

Azərbaycanın dekolonial diplomatiyası yalnız keçmişin tənqidi ilə məhdudlaşmır, o, gələcəyin normativ arxitekturasını formalaşdırmaq istiqamətində strateji və institusional fəaliyyətlərlə müşayiət olunur. Prezident İlham Əliyevin Qoşulmama Hərəkatı çərçivəsində etdiyi çıxışlar, Azərbaycanın bu təşəbbüsləri yalnız siyasi ritorika çərçivəsində deyil, həm də qlobal ədalət müstəvisində əsaslı bir diskursa çevirmək niyyətində olduğunu sübut edir.

Bu mövqe, Azərbaycanın sadəcə regional güc olmaqdan çıxaraq, yeni normaların formalaşdırılmasına yönəlmiş qlobal diplomatik aktor roluna iddialı olduğunu nümayiş etdirir. Bu çərçivədə Azərbaycanın təşəbbüsü ilə yaradılan Bakı Təşəbbüs Qrupu, yalnız tənqidi platforma kimi deyil, həm də ideoloji və hüquqi baxımdan institusional alternativ yaradan bir mexanizm kimi çıxış edir.

Prezident İlham Əliyevin dekolonial siyasət sahəsində irəli sürdüyü təşəbbüslərlə Bakı Təşəbbüs Qrupunun fəaliyyət istiqamətləri arasında uyğunluqları cədvəl formasında aşağıdakı formada müqayisələndirmək mümkündür:

***(Cədvəl 1)***

Azərbaycan Prezidentinin mövqeyi ilə Bakı Təşəbbüs Qrupunun məqsədləri arasındakı uyğunluq

| **Aspekt** | **Prezident İlham Əliyevin Mövqeyi** | **Bakı Təşəbbüs Qrupunun Fəaliyyəti** |
|---|---|---|
| **Məqsəd** | Neokolonializmə qarşı beynəlxalq hüquq əsaslı çıxış | Kolonial keçmiş və müasir neokolonial təcrübələrə qarşı diplomatik müqavimət |
| **Fokus** | Fransa və onun dənizaşırı müstəmləkə strukturları | Qərb ölkələrinin ümumi kolonial strategiyalarının ifşası və diskursun dəyişdirilməsi |
| **İdeoloji baza** | Tarixi ədalət, insan hüquqları, suverenlik | Ədalətli dünya nizamı, beynəlxalq həmrəylik və epistemik plüralizm |
| **Beynəlxalq auditoriya** | QH, keçmiş koloniyalar, Fransa | Afrika, Asiya, Latın Amerikası, inkişaf etməkdə olan postkolonial ölkələr |
| **Təklif olunan fəaliyyət** | Üzr istəmə, hüquqlara hörmət, siyasi məsuliyyət | Maarifləndirici kampaniyalar, diplomatik təşəbbüslər, beynəlxalq hüquqi mexanizmlər |
| **Normativ funksiya** | Postkolonial məsuliyyətin tanınması | Alternativ beynəlxalq nizamın institusional dizaynı və normativ əsaslandırılması |

Azərbaycanın bu mövqeyi təkcə neokolonial təcrübələri ifşa etməyə yönəlməyib, həm də geosiyasi aktor kimi öz mövqeyini möhkəmləndirmək niyyətini ifadə edir. Bu məqsəd, xüsusilə Cənubi Qafqazda yaranan yeni geosiyasi reallıqlar fonunda daha strateji anlam kəsb edir. Azərbaycan, bu yanaşma ilə regionun arxitekturasını yeni dəyərlər – ədalət, tarixi məsuliyyət, epistemik bərabərlik əsasında yenidən qurmaq istəyir.

Tarixi baxımdan isə Azərbaycanın bu mövqeyi dekolonizasiya prosesinin simvolik başlanğıcı hesab edilən Hindistanın 1947-ci ildə Britaniya imperiyasından müstəqillik qazanması ilə müqayisəli kontekstdə qiymətləndirilə bilər. Britaniyanın bu prosesə məcbur qalması, həm II Dünya müharibəsinin nəticələri, həm də kolonial iqtisadi faydaların azalması ilə bağlı olmuşdur.

Azərbaycanın bu strategiyası, Cənubi Qafqaz və Qlobal Cənub arasında körpü rolunu oynayaraq, postkolonial beynəlxalq hüquq və siyasətdə norma istehsal edən aktiv subyekt statusunu möhkəmləndirməyə yönəlib. Bu isə ölkənin beynəlxalq siyasətdə yalnız mövcud struktura uyğunlaşan deyil, onu dəyişməyə çalışan aktor kimi təqdim olunmasına səbəb olur.

Klassik mənada dekolonizasiya prosesi fiziki müstəqilliklə əlaqəlidirsə, Bakı Təşəbbüs Qrupunun bu anlamda apardığı strategiya həm də daha çox insanın daxili dünyasında baş verən transformasiyanı – yeni mənəvi nizamın və siyasi subyektliyin formalaşmasını ehtiva edir. Bu baxımdan dekolonizasiya, mahiyyət etibarilə, yalnız institusional və ya hüquqi aktlarla deyil, həm də insanın kimlik, mədəniyyət və tarixi yaddaş üzərindəki dəyişikliklərlə müşayiət olunan dərin antropoloji prosesdir (Sartre, 2004). Nərgiz Nağiyevanın (2024) vurğuladığı kimi, bu proses “əsaslı şəkildə dəyişdirilmiş insanın yaranması” ilə nəticələnir və həmin insan artıq yalnız tarixin obyekti deyil, onun fəal subyektinə çevrilir.

Fanonun fikrini inkişaf etdirən bu yanaşma göstərir ki, dekolonizasiya sadəcə keçmişlə vidalaşmaq deyil, eyni zamanda gələcəyin yenidən dizaynıdır. Yəni bu, “köhnə insanın yox edilməsi və yeni insanın yaradılması” prosesidir (Fanon, 2004). Bu mənada “yeni dil”, “yeni humanizm” və “yeni zaman” anlayışları dekolonial epistemenin əsas fəlsəfi göstəriciləridir. Bu, Azərbaycanın dekolonial diplomatiyasının ideoloji özəyini təşkil edən elementlərdən biridir.

Bakı Təşəbbüs Qrupu bu yeni epistemologiyanın institusional təcəssümü kimi çıxış edir. Onun fəaliyyəti postkolonial nəzəriyyənin əsas tezisləri ilə – yəni tarixi formaya malik müqavimət hərəkatları, struktur zorakılığın ifşası və özünü dərk edən postkolonial subyektin yaradılması ilə üst-üstə düşür. Bakı Təşəbbüs Qrupu bu prosesi həm bilik istehsalının təşkili, həm də beynəlxalq hüquqi diskursun formalaşdırılması müstəvisində həyata keçirərək, yeni tipli “qlobal vətəndaş” modelini təşviq edir — bu model, öz suveren hüquqlarının fərqində olan, yerli identikliyi qoruyaraq onu müasir kontekstdə yenidən aktuallaşdıran və universal dəyərlərlə ziddiyyətə düşmədən harmonik şəkildə uzlaşdırmağı bacaran fəal subyekt kimi xarakterizə olunur.

Bu mənada dekolonizasiya hər hansı sivil, mərhələli və nizamlı inkişafdan çox, kolonial “nizamın” özünün pozulması, tənqid və dəyişdirilməsi aktıdır. Gopal Balakrishan (2016) qeyd edir ki, “dekolonial ideologiya mövcud normativ strukturun içində addım-addım irəliləməyə deyil, onun radikal transformasiyasına ehtiyac duyur.” Azərbaycan bu yanaşmanı qəbul etməklə, beynəlxalq sistemdə yalnız iştirakçı deyil, yeni normativ arxitekturanın təşəbbüskarı olaraq çıxış edir.

“Postkolonial tədqiqatlarda dəfələrlə vurğulanmışdır ki, dekolonizasiya yalnız bir bayrağın digəriylə əvəzlənməsi prosesi deyil, həmin bayraq altında yaşayan subyektin özünü tanıma, yenidən qurma və öz tarixini yazma prosesidir” (Bhabha, 1994). Bu kontekstdə Azərbaycan yalnız keçmişə münasibət bildirmir, həm də gələcək nizamın bilik və məna çərçivələrini dəyişməyə yönəlmiş konseptual diplomatiya həyata keçirir.

Bu baxımdan, Azərbaycanın dekolonial diplomatiyası Bakı Təşəbbüs Qrupu çərçivəsində sadəcə mövcud sistemə etiraz deyil, o, yeni epistemoloji sistemin inşası üçün həyata keçirilən şüurlu və planlı transformasiya strategiyasıdır. Bu strategiya həm keçmişin tənqidi, həm bu günün təsviri, həm də gələcəyin qurulması aktı kimi çıxış edir.

Dekolonial diplomatiyanın uğuru yalnız keçmişlə bağlı tənqidlərin səsləndirilməsi ilə deyil, həm də gələcəyə yönəlmiş bilik istehsalı, identiklik quruculuğu və institusional alternativlərin yaradılması ilə ölçülür. Bu baxımdan Azərbaycan yalnız simvolik çıxışlarla kifayətlənmir, əksinə, Bakı Təşəbbüs Qrupu vasitəsilə postkolonial və dekolonial nəzəriyyələrin əsas tezislərini praktikaya çevirən strateji platforma yaradır.

Postkolonializm XX və XXI əsrlərdə təkcə müstəmləkəçiliyin tarixini deyil, onun davam edən sosial, iqtisadi və psixoloji izlərini anlamağa yönəlmiş çoxşaxəli bir nəzəri çərçivə kimi meydana çıxmışdır. Robert Yanq (2016) bu kontekstdə imperiyanı təkcə hərbi fəth deyil, həm də “inkişaf etmiş Qərb” və “geridə qalmış postkolonial cəmiyyətlər” arasında bərabərsiz və asimmetrik bilik münasibətləri kimi təsvir edir. Ona görə, postkolonializm yalnız tarixə deyil, bu günə dair ideoloji mübarizədir.

Azərbaycanın bu yanaşmanı qəbul edərək beynəlxalq sistemdə həm iştirakçı, həm də normalar quran və dəyərlər yaradan aktor kimi çıxış etməsi onun dekolonial diplomatiyasının əsas nüvəsini təşkil edir. Bakı Təşəbbüs Qrupu bu kontekstdə yalnız tənqidi diskurs formalaşdırmır, həm də beynəlxalq hüquq və diplomatiyada alternativ epistemoloji sistemlərin təşviqinə çalışır. Bu, Qustav Lins Riberonun təklif etdiyi "postimperializm mərhələsi" (2023) ilə nəzəri uyğunluq təşkil edir. Ribero qeyd edir ki, dekolonial siyasət yalnız mövcud hegemon bilik strukturunun tənqidi ilə kifayətlənməməli, həm də gələcək nizam üçün yeni konseptual arxitekturalar formalaşdırmalıdır.

Andreas Eckertin (2004) Afrika ölkələrində sosial təminat, rifah sistemi və dövlət quruluşlarının kolonializmdən miras qalan modellərlə necə davam etdiyini göstərən araşdırması postkolonial nəzəriyyənin dərinliyini ortaya qoyur. O göstərir ki, siyasi müstəqillik əldə olunsa belə, kolonial strukturun sosial və hüquqi institutlardakı izləri hələ də qalır. Azərbaycanın BTQ vasitəsilə bu kimi təcrübələri beynəlxalq gündəmə gətirməsi onu təkcə keçmişi tənqid edən yox, həm də gələcəyin institusional alternativlərini təklif edən aktor kimi təqdim edir.

Dekolonial nəzəriyyə, postkolonializmlə müqayisədə daha radikal və konseptual yanaşmadır. Əgər postkolonializm əsasən tarixi kolonial izləri təhlil edirsə, dekolonial yanaşma biliklərin, modernliyin və hətta gündəlik həyat strukturunun Avropa mərkəzçiliyi ilə necə formalaşdığını sorğulayır (Mignolo, 2018; Sabaratnam, 2011). Bu mənada Azərbaycan yalnız öz regionunda deyil, həm də Qlobal Cənubun normativ dəyişiklik tələbini beynəlxalq münasibətlər sisteminə daşıyan aktor kimi çıxış edir.

Bu yanaşma Azərbaycanın rəsmi çıxışlarında və Bakı Təşəbbüs Qrupunun fəaliyyət istiqamətlərində açıq şəkildə görünür. Prezident İlham Əliyevin çıxışlarında kolonializmə qarşı göstərilən mövqe, həm də bu gün mövcud olan struktur güc asimmetriyalarının ifşasına yönəlmişdir. Bu, Ribero və Eckertin izah etdiyi kimi, artıq sadəcə keçmişin günahlarının tanınması deyil, gələcəyin ədalətli dünya düzəninin təşkili üçün institusional və epistemik alternativlərin irəli sürülməsi deməkdir.

Nəticə etibarilə, Azərbaycanın dekolonial diplomatiyası – postkolonializmin tənqid etdiyi tarixi izləri aşmaqla yanaşı, dekolonializmin tələb etdiyi alternativ bilik, yeni identiklik və institusional bərabərlik prinsipini təşviq edir. Bakı Təşəbbüs Qrupu, postimperial dünya nizamının həm nəzəri cəhətdən mümkünlüyünü təsdiqləyən, həm də bu modelin normativ əsasda müdafiəsini həyata keçirən çoxşaxəli beynəlxalq platforma kimi çıxış edir. Bu təşəbbüs, dekolonial yanaşmanın praktik-strateji ifadəsi olaraq, müasir qlobal münasibətlərdə ədalət, bərabərlik və suverenlik prinsiplərinə əsaslanan alternativ geosiyasi düzənin təşviqinə yönəlmişdir.

## NƏTİCƏ

Məqalədə göstərildiyi kimi, postkolonializm əsasən kolonial keçmişin sosial, siyasi və psixoloji izlərini təhlil etməklə yanaşı, bu mirasın müasir dövlət strukturlarında necə davam etdiyini də araşdırır. Dekolonializm isə daha irəli gedərək bu təsirləri yenidən istehsal edən Avropa mərkəzli bilik və güc sistemlərinə qarşı biliklərin dekolonizasiyası, yeni identiklik formalarının qurulması və qlobal ədalətin institusional əsaslarının yenidən dizaynı kimi radikal çağırışlar irəli sürür. Azərbaycanın dekolonial diplomatiyası və Bakı Təşəbbüs Qrupu məhz bu yanaşmanın çağdaş təcəssümüdür.

Bu kontekstdə, Azərbaycanın siyasəti təkcə keçmiş kolonial gücləri siyasi məsuliyyətə çağırmaqla kifayətlənmir. O, eyni zamanda yeni qlobal düzənin normativ əsaslarını irəli sürən və Qlobal Cənubun maraqlarını müdafiə edən sistemli fəaliyyət çərçivəsində həyata keçirilir.

Bu fəaliyyətlərdən meydana çıxan ümumi cəhətləri konkretləşdirdikdə aşağıdakı əsas təşəbbüs və təklifləri irəli sürmək mümkündür:

Birincisi, neokolonializmə qarşı normativ müdafiə kontekstindən məsələyə baxadıqda, Azərbaycan beynəlxalq hüququn prinsipləri – suverenlik, öz müqəddəratını təyinetmə və insan hüquqları – əsasında neokolonial güc strukturlarını ifşa edir və bu tendensiyalara qarşı institusional müqavimət formalaşdırır.

İkincisi, biliklərin dekolonizasiyası aspektindən aydın olur ki, Bakı Təşəbbüs Qrupu vasitəsilə Azərbaycan Qərb mərkəzli bilik istehsalına qarşı alternativ epistemoloji mərkəz yaratmağa çalışır. Bu istiqamətdə Qlobal Cənub ölkələri ilə ortaq platformalar formalaşdırılır.

Üçüncüsü, diplomatik və ideoloji həmrəylik şəbəkələrinin qurulması baxımından, Afrika, Karib və Sakit Okean ölkələri ilə dekolonial əməkdaşlıq mexanizmləri inkişaf etdirilir. Bu, yalnız diplomatik səviyyədə deyil, eyni zamanda maarifləndirici və ictimai diplomatiya vasitəsilə həyata keçirilir.

Dördünücüsü, yeni qlobal nizama keçid üçün çağırışları nəzərə aldıqda, Azərbaycan mövcud beynəlxalq münasibətlər sistemindəki iyerarxik və qeyri-bərabər strukturun dəyişdirilməsi üçün postimperial alternativlər irəli sürür və onları təcrübədə təşviq edir. Azərbaycan bu təşəbbüslə beynəlxalq diplomatiyada yalnız reaksiya verən tərəf deyil, dəyər və norma formalaşdıran subyekt kimi çıxış etməkdədir. Məhz bu yanaşma Azərbaycanı dekolonial və postimperial dünya düzənində liderliyə namizəd dövlətlər sırasına daxil edir.

## ƏDƏBİYYAT SİYAHISI


1. Ashcroft, B., Griffiths, G., & Tiffin, H. (2013). *Post-Colonial Studies: The Key Concepts* (3rd ed.). Routledge.
2. Balakrishnan, G. (2016). *Antagonistics: Capitalism and Power in an Age of War*. Verso.
3. Bhabha, H. K. (1994). *The Location of Culture*. Routledge.
4. Cooper, F. (2005). *Colonialism in Question: Theory, Knowledge, History*. University of California Press.
5. Corbin, C. (2024). *The Evolution of French Colonialism: A Political and Constitutional Analysis*. New Caledonia Press.
6. Eckert, A. (2004). Regulating the social: Social security, social welfare and the state in colonial Tanzania. *Journal of African History, 45*(3), 467–489. https://doi.org/10.1017/S0021853704009884
7. Fanon, F. (2004). *The Wretched of the Earth* (R. Philcox, Trans.). Grove Press. (Original work published 1961)
8. Fanon, F. (2008). *Black Skin, White Masks* (R. Philcox, Trans.). Grove Press. (Original work published 1952)
9. Hall, S. (1996). Cultural identity and diaspora. In P. Mongia (Ed.), *Contemporary postcolonial theory: A reader* (pp. 110–121). Arnold.
10. Mbembe, A. (2017). *Critique of Black Reason* (L. Dubois, Trans.). Duke University Press.
11. Mignolo, W. D. (2018). *The Politics of Decolonial Investigations*. Duke University Press.
12. Nağiyeva, N. (2024). Dekolonizasiya və yeni insanlıq: Tarixi proseslərin fəlsəfi təhlili. *Elmi-Nəzəri Jurnal*, Bakı.
13. Ribeiro, G. L. (2023). From the decolonization of knowledge to a postimperialism stage: A Latin American perspective. *Anthropological Theory, 23*(1), 55–74. https://doi.org/10.1177/14634996221137067
14. Sabaratnam, M. (2011). *Decolonising Intervention: International Statebuilding in Mozambique*. Rowman & Littlefield.
15. Sartre, J.-P. (2004). *Colonialism and Neocolonialism*. Routledge.
16. Thomas, M. (2007). *Empires of Intelligence: Security Services and Colonial Disorder after 1914*. University of California Press.
17. Wilder, G. (2015). *Freedom Time: Negritude, Decolonization, and the Future of the World*. Duke University Press.
18. Young, R. (2016). *Postcolonialism: A Very Short Introduction*. Oxford University Press.
19. Baku Initiative Group against French colonialism established. (2023, July 6). *Report.az*. https://report.az/en/foreign-politics/baku-initiative-group-against-french-colonialism-established
20. 


## SUMMARY

## THE BAKU İNITIATIVE GROUP AND DECOLONIAL POLICY: A NEW GEOPOLITICAL MOVEMENT AGAINST FRENCH AND WESTERN COLONIALISM


**Mahammad Jabrailov**

Head of the Department of "Philosophical Problems of Digital Development and Artificial Intelligenc" Institute of Philosophy and Sociology, Azerbaijan National Academy of Sciences (ANAS) Ph.D. in Philosophy, Associate Professor



In the 21st century, the transformation of power relations in the international system and the desire of postcolonial states to have an equal say in global affairs have led to the growing relevance of decolonial policy. In this context, the Baku

Initiative Group (BIG), established at the initiative of the Republic of Azerbaijan, can be seen as a new international movement against neocolonialism. The purpose of this article is to analyze the necessity of the formation of BIG, its areas of activity, and Azerbaijan's geopolitical stance against the colonial policies of France and other Western powers. The research employs normative-political analysis and a postcolonial approach as the main methodological framework, examining BIG not only as a political initiative but also as a cultural and diplomatic platform. The analysis reveals that BIG actively opposes colonial legacies in various international forums and establishes mechanisms for cooperation among postcolonial countries. Based on the findings, BIG is not merely a regional initiative but also serves as a normative platform advocating for justice, sovereignty, and equality in the international system. In conclusion, the article demonstrates that through its decolonial policy, Azerbaijan is emerging as a new actor in the global power structure, and BIG has become one of the main instruments of this process.
**Keywords**: Baku Initiative Group, decolonial policy, neocolonialism, France, geopolitical initiative, Azerbaijan.

## РЕЗЮМЕ

### Бакинская Инициативная Группа и деколониальная политика: новое геополитическое движение против колониализма Франции и запада

**Магомед Джабраилов,**
Заведующий отделом «Философские проблемы цифрового развития и искусственного интеллекта», Институт философии и социологии, Национальная академия наук Азербайджана (НАНА) Кандидат философских наук, доцент

В XXI веке трансформация силовых отношений в системе международных отношений и стремление постколониальных государств к равноправному участию в глобальной политике привели к актуализации деколониальной политики. В этом контексте Бакинская Инициативная Группа (БИГ), созданная по инициативе Азербайджанской Республики, может рассматриваться как новое международное движение против неоколониализма. Целью данной статьи является анализ необходимости создания БИГ, направлений её деятельности и геополитической позиции Азербайджана в противостоянии колониальной политике Франции и других западных держав.

В исследовании в качестве основной методологической основы используются нормативно-политический анализ и постколониальный подход. БИГ рассматривается не только как политическая, но и как культурная и дипломатическая платформа. В результате анализа установлено, что БИГ выступает против колониального наследия на различных международных форумах, а также выстраивает механизмы сотрудничества между постколониальными государствами.

Согласно результатам исследования, БИГ представляет собой не только региональную инициативу, но и нормативную платформу, отстаивающую принципы справедливости, суверенитета и равенства в международной системе.

В заключение статья демонстрирует, что Азербайджан посредством своей деколониальной политики выступает в роли нового актора в глобальной системе сил, а БИГ становится одним из ключевых инструментов этого процесса.
**Ключевые слова**: Бакинская Инициативная Группа, деколониальная политика, неоколониализм, Франция, геополитическая инициатива, Азербайджан